# SƏFƏVİ-OSMANLI MÜHARİBƏLƏRİ TARİXİNDƏN

**Nizami Məhərrəmov**
Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi, tarix üzrə fəlsəfə doktoru, dosent

**Zakir Həsənəliyev**
Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi, baş müəllim

## GİRİŞ

*XVI əsrin əvvəllərində Səfəvi dövlətindəki sünnilərin bir hissəsinin osmanlı, digərlərinin isə özbəklərlə əlaqə yaradaraq onları qızılbaşlara qarşı müharibəyə təhrik etmələri Osmanlı-Səfəvi münasibətlərini pisləşdirmişdi. Bu baxımdan, iki türk fövqəldövlətinin Yaxın Şərqdə geosiyasi, ideoloji və iqtisadi maraqlarının toqquşmasını tədqiqatçıların bəziləri dini müharibə kimi qiymətləndirir. Şübhəsiz ki, bu amilin rolunu inkar etmək olmaz, amma o dövrün mövcud vəziyyəti, dövlətlərin iqtisadi-siyasi maraqlarından irəli gələrək öz ərazilərini genişləndirmək, yeni torpaqları nəzarət altına almaq, iqtisadi imkanları artırmaq istəkləri də belə müharibələri qaçılmaz edirdi. Məhz gərginliyin meydana çıxmasının və Osmanlı-Səfəvi müharibələrinin baş verməsinin vacib amillərindən biri kimi Osmanlı dövlətinin iqtisadi maraqlarının təmini siyasəti əsasdır. Bunu Türkiyə tarixçisi Xəlil İnalcığın yazısında da görmək mümkündür: "Osmanlı iqtisadiyyatının şah damarı olan Təbriz-Toqat-Bursa ipək yolu Osmanlı işğallarını Şərqə doğru istiqamətləndirən əsas amil idi" [1, s.31].*

*Mərkəzləşdirilmiş Azərbaycan Səfəvi dövlətinin yaranması və getdikcə daha da qüvvətlənməsi Osmanlı imperiyası ilə müharibə vəziyyətindəki Avropa dövlətlərinin nəzər-diqqətinin yenidən Şərqə yönəlməsi ilə nəticələndi. Azərbaycan Səfəvi dövlətinin banisi I Şah İsmayılın fəal xarici siyasət yeritməsi Avropa diplomatiya dairələrində belə bir ümid doğurdu ki, Səfəvi dövləti Osmanlı imperiyası ilə hərbi-siyasi qarşıdurmada Avropa dövlətlərinin müttəfiqi ola bilər [2]. Məhz Qərbi Avropa ölkələrinin türk imperiyalarını bir-birilə vuruşdurmağa yönələn siyasəti də bu dövlətlər arasında münasibətləri kəskinləşdirdi.*

*Müxtəlif dövrləri əhatə edən müharibələr iki dövlət arasında ciddi problemlərin yaranmasına gətirib çıxardı, xüsusilə də mübarizədə Səfəvi dövlətinin zəifləməsi Azərbaycanın sonrakı hərbi-siyasi durumunun pisləşməsinə səbəb oldu.*

## SƏFƏVİ-OSMANLI MÜNASİBƏTLƏRİNİN KƏSKİNLƏŞMƏSİNİN SƏBƏBLƏRİ

Səfəvi-Osmanlı münasibətləri XVI əsrin ikinci yarısında kəskinləşməyə başladı. Osmanlı sultanı II Bayazid Azərbaycan ərazilərini öz səltənətinə birləşdirmək niyyətindən daşınmamışdı. Əvvəlcə Şah İsmayıl onunla münasibətləri pozmaq istəmirdi. Ancaq Sultan Bayazid Səfəvilərə qarşı daimi hərbi hazırlıq işləri görürdü. Belə bir vəziyyətdə Şah İsmayıl Şeybani xanı məğlub etdi, bundan sonra türk səltənətinə qarşı münasibəti dəyişdi və fikrini Sultan II Bayazidə belə bir formada çatdırdı: "Şeybaninin başının dərisinə saman dolduraraq ona göndərdi" [3, s.124]. Bununla Sultan Bayazid Şah İsmayılın nə demək istədiyini başa düşdü. O, Səfəvi imperatorluğunun gücünə yaxşı bələd idi və Şah İsmayıla qarşı ciddi mübarizəyə başlamağa hələ ki, cəsarət etmirdi. Elə bu səbəbdən də əlacsız qalıb Səfəvi dövlətini tanıdı. Bu, 1504-cü ildə oldu. Mərv döyüşündən sonra Şah İsmayılın sərkərdəsi Nurəli Xəlifə Kiçik Asiyada yerləşən Malatya və Qarahisarı zəbt etdi. Şah İsmayılın Məhəmmədxan Ustaclı adlı sərkərdəsi isə Diyarbəkiri ələ keçirdi.

1512-ci ildə Osmanlı səltənətinin taxtına Sultan I Səlim çıxdı (1512-1520) və Səfəvilərə qarşı müharibə fikrinə düşdü. Bunu anlayan Şah İsmayıl bir sıra tədbirlər həyata keçirmək məcburiyyətində qaldı. Belə ki, 1507-1508-ci illərdə Roma papalığı, Neapol krallığı, Venesiya, Kipr və Rodosla sərfəli münasibətlər yaratdı. 1509-cu ildə Səfəvi imperatorluğunun diplomatı Əli bəy İtaliyaya səfər



etdi. Lakin İtaliyadan odlu silah almaq üçün aparılan danışıqlar müsbət nəticə vermədiyindən (Aralıq dənizi vasitəsilə Qərbdən odlu silah almağın mümkünsüzlüyü) görən Şah İsmayıl bəzi əlavə ehtiyat tədbirləri görməyə başladı. Portuqaliya ilə əlaqə yaratdı, Hörmüz (İran) körfəzi və Hind okeanı vasitəsilə Qərbdən odlu silah almağa cəhd göstərdi, Portuqaliyanın Hörmüz körfəzində möhkəmlənməsinə heç bir maneçilik yaratmadı. Lakin sonrakı hadisələr göstərdi ki, səhv addımdır və bundan məharətlə istifadə edən Portuqaliya Hörmüz körfəzini ələ keçirdi. Ən pisi də o oldu ki, Portuqaliya Səfəvilərin Hind okeanına yolunu bağladı. (Şah İsmayılın bu səhvini 100 ildən sonra Şah I Abbas aradan qaldırdı - 1620-ci ildə Hörmüz körfəzini portuqallardan geri aldı).

Qeyd edək ki, zaman ötdükcə Osmanlı-Səfəvi münasibətləri daha da kəskinləşirdi. Hələ bir qədər əvvəl Avropa və Asiya dövlətlərinin bir qisminin diplomatları Sultan Səlimin hakimiyyətini tanımaq üçün Ədirnəyə gəlmişdilər. Lakin onların arasında Səfəvi imperatorunun elçisi yox idi. Əlbəttə, bu, Sultan Səlimi daha da hiddətləndirdi. Qarşıda gözlənilən müharibədə güclü mövqeyə malik olmaq və silahlı qüvvələrini möhkəmləndirmək məqsədilə Sultan Səlim Macarıstan,Venesiya, Moldova, Moskva knyazlığı və Valaxiya ilə sülh müqavilələri bağladı ki, qoşunlarını Səfəvi imperatorluğunun sərhədlərində toplaya bilsin.

Osmanlıları ən çox da narahat edən Səfəvi imperatorluğunun Avropanın bir neçə nüfuzlu ölkələri ilə yaxşı münasibətlərinin genişlənməsi idi. Lakin Şah İsmayılın Avropa ölkələri ilə belə münasibət qurması təbii hal idi - babası Uzun Həsənin Avropaya dair yürütdüyü siyasəti davam etdirirdi. İtaliya diplomatları Laskarin və Morozinin Səfəvi imperatorluğunun dövlət adamları ilə səmərəli danışıqlar aparırdı. Hətta Roma Papası Avropa hökmdarlarına məktubunda Şah İsmayılı osmanlılara qarşı “Allahın xristian dünyası üçün yaratdığı bir fürsət” [4, s.190] kimi qiymətləndirirdi. Məhz bu iki dövlətin bir-biri ilə toqquşmasında Papalığın və Avropa ölkələrinin böyük marağı vardı (bu yolla özlərini türk işğalından qurtarmaq istəyirdilər - N.M.).

Sultan Səlim gördüyü tədbirləri Şah İsmayılla aparacağı ağır müharibələr üçün qaneedici saymadı və əlavə qüvvə almaq üçün Özbək xanı İbeydullaya müraciət etdi. 1514-cü ildə Ədirnədə Divan çağırdı, din xadimlərini də topladı və onların iştirakı ilə Səfəvilərə qarşı müharibə elan etdi. Daha sonra ölkəsinin hər yerində böyük qoşun toplamaq üçün səfərbərlik elan etdi, yeniçərlərin mənəvi, döyüş ruhunu qaldırmaq məqsədilə hərəsinə 1000 axça pul payladı, Sivasda 140 minlik qoşuna baxış keçirdi və beləliklə bütün ölkə müharibə şəraitinə gətirildi.

Osmanlı-Səfəvi müharibələri fasilələrlə 125 il çəkib. Elmi ədəbiyyatda bu müharibələri əsasən 3 mərhələyə (dövrə) ayırırlar.

## SƏFƏVİ-OSMANLI MÜHARİBƏLƏRİNİN BİRİNCİ MƏRHƏLƏSİ (1514- 1555). AMASİYA SÜLHÜ

Sultan Səlim iki Osmanlı və Səfəvi imperatorluqlarını ayıran Çaysu çayını keçib Ərzincana daxil oldu. Lakin orada bir




nəfər belə Səfəvi döyüşçüsü görməyərək heyrətə gəldi. Hələ bir neçə gün əvvəl Şah İsmayıl Ərzincanın hakimi olan sərkərdəsi Nurəli Xəlifəyə əmr vermişdi ki, şəhəri tərk etsin. Sultan Səlim 2 məktub yazdırıb Şah İsmayıla göndərdi, ancaq cavab gəlmədi. Üçüncü məktubunda isə təhqirlə şaha bildirdi ki, “əgər sən qorxaq deyilsənsə, döyüşə gəl, yox, əgər belə etmirsənsə, get babaların kimi dərvişliyini et”. Şah İsmayıl da cavab yolladı ki, onu hökmdar kimi tanımır. Sultan Səlim Səfəvi elçisini öldürtdürərək, qəzəbindən onun, yəni Şah İsmayılın ardınca cəhənnəmə qədər də olsa gedəcəyinə söz verdi. Bundan sonra 4-cü təhqiramiz məktubunu Şah İsmayıla göndərdi, özü isə Təbrizə hücum etmək qərarına gəldi. Lakin əvvəlcə Maku yaxınlığında Çaldıran düzündə döyüş mövqeyi tutdu [5]. Mərkəz qoşununun önündə təqribən 300 top yerləşdirilmişdi.

Şah İsmayıl sultanın hərəkətlərindən xəbər tutub döyüşü qəbul etmək qərarına gəldi. Lakin sərkərdələri - Məhəmməd xan Ustaclı və Nurəli Xəlifə Rumlunun osmanlıların üzərinə gecə hücuma keçmək təkliflərini “Mən karvanbasan quldur deyiləm” - deyə rədd etdi.

Nəhayət 1514-cü il 23 avqust tarixində Çaldıran düzündə iki türk hökmdarı arasında savaş başlandı. Müharibə meydanında heç vaxt başqalarının arxasında gizlənməyən Şah İsmayıl həmişəki kimi ən qızğın ərazidə vuruşurdu. O, vuruşlarda ad çıxarmış osmanlı sərkərdəsi Malçuqoğluya yetişib təkbətək mübarizədən qalib çıxdı. Salnamədə yazılıb ki, “İsmayıl qılıncla onun başına elə bir zərbə endirdi ki, baş dəbilqə ilə birlikdə iki hissəyə parçalandı...” [6, s.51]. Sultan Səlim gördü ki, döyüşçüləri daha çox həlak olur, dərhal mərkəzi qoşun hissələrinin önündə düzülmüş 300 topu işə salmaq əmri verdi. Əlbəttə təbiidir ki, arasıkəsilmədən partlayan top mərmilərinə qarşı qılıncla duruş gətirmək müşkül məsələdir. Bu səbəbdən də Səfəvi qoşunu məğlub oldu. Sultan Səlimin yeniçəriləri üstün vəziyyətdən bəhrələnib Şah İsmayılı ələ keçirmək istəyirdilər və az qala buna nail olacaqdılar. Lakin xaricən şaha bənzəyən qızılbaşlardan Sultanəli adlı birisi “Mənəm İsmayıl” hayqırtısı ilə yeniçəriləri öz arxasınca apardı və beləliklə İsmayılı xilas etdi [7].

Səfəvilərin azsaylı və odlu silahdan məhrum qoşununun məğlubiyyətindən sonra Sultan Səlim Təbrizi tutdu. Lakin orada çox qalmadı. Hərbi tələ qurulacağından ehtiyatlanaraq şəhərdən çıxıb geri çəkildi.

1516-cı ilin əvvəllərində baş vermiş Qoçhisar döyüşündə Səfəvilər yenidən məğlubiyyətə uğradılar. Osmanlılar Təbrizə daxil oldular, lakin çox qalmayıb, bir neçə min yerli türk sənətkar ailəsini də məcburən İstanbula apardılar. Bu olaylardan sonra Səfəvi imperatorluğunun böyük əraziləri osmanlıların əlinə keçdi: Ərzurum şəhəri ilə birlikdə Şərqi Anadolu və Şimali Mesopotamiyanı osmanlılar tutdu. Səfəvilərin əlində isə Bağdad da daxil olmaqla Ərəb İraqı qaldı [9, s.252-253].

Şah İsmayılın vəfatından sonra (1524) Səfəvi imperatorluğunun taxtına oğlu I Təhmasib çıxdı (1524-1576). O da atasının siyasətini davam edərək ölkənin vahid bir dövlət çərçivəsində birləşdirilməsi prosesini başa çatdırmağa çalışırdı. Lakin şahlığı dövründə əraziləri tez-tez Osmanlı qoşunlarının işğalçı hücumlarına məruz qaldı. Osmanlı türklərinin sultanı I Süleyman Qanuni (1520-1565) Azərbaycana birinci hərbi yürüşünü 1534-cü ildə etdi və Təbrizi tutdu. Lakin burada hərbi mövqeyini möhkəmləndirə bilməyib geri döndü. Osmanlı sultanının Azərbaycana ikinci hərbi yürüşü 1535-ci ilin yazında baş verdi, yenə Təbrizi tutsalar da aclıqla rastlaşdılar və bu sınağa dözməyib geri çəkilməyə məcbur oldular.

Sultan Süleyman məqam gözləyirdi ki, Azərbaycan ərazilərinə hücumlarını davam etdirsin. Belə də edir, üçüncü yürüşündə Təbrizi tutur. Onunla birlikdə olan Əlqas Mirzə Həmədanda əsir alındı və Qəhqəhə qalasına salındıqdan bir müddət sonra elə orada öldü. Üçüncü yürüşdə də müvəffəqiyyət qazana bilməyən Sultan Süleyman Təbrizi tərk etdi.

1551- ci ildə Kiş və " Gələrsən-Görərsən" qalasına sığınan Şəki hakimi Dərviş Məhəmmədin qüvvələri də məğlub edilib öldürüldü. Şəki hakimliyi də Səfəvi imperatorluğuna birləşdirildi. Toyğun bəy Qacar Şəki hakimi təyin edildi. Bununla da Azərbaycan ərazilərinin vahid dövlət çərçivəsində birləşdirilməsi prosesi başa çatdı.

Həmin olaylardan sonra 1554-cü ildə I Süleyman Azərbaycana dördüncü yürüşünü etdi. Lakin yenə də müvəffəqiyyət qazana bilməyib, Naxçıvandan geri qayıtdı. O, 1555-ci il 29 may tarixdə Amasiya sülhü bağlamağa məcbur oldu. Sülh müqaviləsinə əsasən, Van ətrafı və Qərbi Gürcüstan Osmanlı dövlətinə, Gürcüstanın şərqi isə Səfəvi imperatorluğunda qaldı.

## SƏFƏVİ-OSMANLI MÜHARİBƏLƏRİNİN İKİNCİ MƏRHƏLƏSİ (1578-1590). İSTANBUL MÜQAVİLƏSİ

14 may 1576-cı ildə Səfəvi imperatorluğunun hökmdarı I Təhmasib xəstəlikdən vəfat etdi. Hökmdarlığa onun 9 oğlundan yalnız ikisi real namizəd idi: Heydər Mirzə və İsmayıl Mirzə. İsmayıl Mirzəni atası hələ öz sağlığında Qəhqəhə qalasına saldırmışdı və buna baxmayaraq, qəlbində ona qarşı müsbət hissləri qalmışdı. Heydər Mirzə isə o, xəstə olanda anası ilə birlikdə yanında idilər. Yəni, Heydər Mirzənin taxt-taca sahiblənməsi üçün daha yaxşı fürsət vardı. Hər iki qardaşın tərəfdarları çalışırdılar ki, namizədi hökmdar olsun. Elə buna görə də saray adamları iki cəbhəyə bölünmüşdülər. 14 may tarixə qanlı gün kimi düşüb. I Təhmasibin cəsədi soyumamış Heydər Mir-zənin düşmənləri onun başını kəsib qanlı-qanlı anasının və hərəmxanada olan başqa qadınların ayaqları altına atdılar və rişxəndlə dedilər: "Alın, bu da sizin şahın başı!" [10, s.119-122].

22 avqust 1576-cı il tarixdə İsmayıl Mirzə II İsmayıl adı ilə Səfəvi imperatorluğunun qanuni hökmdarı oldu (1576-1577). Lakin o, bir sıra faydalı islahatlarla yanaşı sünni təmayüllü saray əyanları ilə daha çox yaxınlıq edir, məsələ o qədər dərinləşir ki, II İsmayıl imam Əlinin fikirlərini belə, məscidlərdən silinməsi əmri verir. Təsadüfi deyil ki, II İsmayılın sui-qəsd nəticəsində öldürülməsinin əsas səbəblərindən biri də məhz yuxarıda qeyd edilmiş hərəkətləri olmuşdur .

Qeyd edək ki, Səfəvi şeyxlərinin varisləri müasir dövrdə də Ərdəbildə və başqa yerlərdə yaşayırlar [11, s.5-8].

II İsmayıldan sonra şahlıq taxtına çıxmış Məhəmməd Xudabəndənin hökmdarlığı dövründə (1578-1587) Səfəvi imperatorluğu zəiflədi, xəzinə tamam boşaldı. Əsas səbəb bu idi ki, saray əyanları onunla, demək olar, hesablaşmırdılar.

Belə vəziyyəti görən Osmanlı sultanı III Murad Səfəvilərlə uzun-uzadı müharibələrin ikinci mərhələsini başladı (1578-1590). 9 avqust 1578-ci ildə Qars ərazisindəki Çıldır gölünün sahilində Osmanlı qoşunları Səfəvilərə qalib gəldilər. Bu döyüşdəki məğlubiyyətin səbəbləri: Ustaclı və Türkmən tayfaları arasındakı düşmənçiliyə görə qoşunların birləşə bilməməsi, vahid komandanlığın yoxluğu və əlbətdə, qüvvə nisbətinin Osmanlıların xeyrinə olması idi. 9 sentyabr 1578-ci il tarixində Alazan çayı sahilində baş vermiş döyüş isə qızılbaş qoşununun xeyrinə başa çatdı. Daha sonra, noyabr ayında Ağsu çayı sahilində yerləşən Mollahəsənlidə osmanlılar tərəfində vuruşan Krım xanının 12 minlik qoşununu Səfəvilər darmadağın etdilər. 1583-cü ildə Şirvanın Niyazabad bölgəsində Səfəvilər yenidən osmanlılara qalib gəldilər. Lakin elə həmin ili Samur çayı sahilində tarixə "Məşəl savaşı" adı ilə düşmüş davada məğlubiyyətə uğradılar. Ardınca 1585-ci ilin sentyabrında da Sufıyan döyüşündə osmanlılar qalib gəldilər və Təbrizi tutdular.

Səfəvi əyanlarının bir qismi Azərbaycan dövlətçiliyi və onun nüfuzunun bərpasını qərara aldılar. Bu məqsədlə hələ 1587-ci ildə Mürşüdqulu xanın başçılığı altında bir qrup Azərbaycan əyan və sərkərdəsi Məhəmməd Xüdabəndənin 16 yaşlı oğlu Abbası (1587-1629) Qəzvin şəhərində şah elan etdilər. Bu zamanlar Azərbaycanın vəziyyəti çox ağır idi, çünki osmanlılar ölkənin daxilində, özbəklər Şərq sərhədlərində, portuqaliyalılar isə Hörmüz (İran) körfəzində meydan sulayırdılar. Şah Abbas bir sıra inzibati və hərbi islahatlar keçirdi. Artıq yalnız qızılbaşlar yox, başqaları da silah daşıya bilərdilər. Qızılbaşların sayı 200 minə, qulamların sayı 15 minə, tüfəngçilərin sayı 12 minə, topçu dəstəsində topların sayı 500-ə çatdırıldı.

Şah I Abbas 1598-ci ildə Azərbaycanın paytaxtını Qəzvindən İsfahana köçürdü. Əlavə olaraq Roma papalığı, Fransa, İspaniya, İngiltərə və Rusiya ilə diplomatik danışıqlar apardı. Real hərbi-siyasi vəziyyəti nəzərə alaraq İstanbul müqaviləsini tanıdı.

Osmanlılar əllərinə keçirdikləri əraziləri Şirvan və Dərbənd bəylərbəyliyinə bölmüşdülər. Xəzər dənizinə çıxaraq Niyazabadda gəmilər inşa etməyə başlamışdılar. Səfəvilərin tərkibində qalmış

ərazilərdə 1593-cü ildə Ərdəbil mərkəz olmaqla Azərbaycan bəylərbəyliyi yaradıldı. Bu bəylərbəyliyinin "Azərbaycan qoşunu" adlanan 10 min nəfərlik silahlı qüvvələri vardı.

Şah Abbas xarici siyasətində öncə üç məsələni həll elmək istəyirdi:

1. Şimal-şərqdə şeybaniləri əzib Xorasanı geri almaq;

2. İran (Hörmüz) körfəzində portuqaliyalıların ağalığına son qoymaq, Hind okeanına çıxış əldə etmək.

3. 1578-1590-çı illərdə osmanlıların tutduğu əraziləri geri qaytarmaq;

1599-cu ildə Şah Abbas 1-ci istəyini yerinə yetirdi - Xorasanı geri ala bildi. Lakin ikinci məsələnin həlli çətin idi, çünki Hörmüz körfəzinin açılmasında nüfuzlu Avropa ölkələri və Rusiya da maraqlı idilər.




## SƏFƏVİ-OSMANLI MÜHARİBƏSİNİN III MƏRHƏLƏSİ (1603-1639). QƏSRİ-ŞİRİN SÜLHÜ

Özünü müharibəyə hazır sayan Şah Abbas 1603-cü ildə osmanlılardan Azərbaycan ərazilərini geri almaq üçün müharibələrin üçüncü mərhələsini özü başladı. Osmanlıların əsas qüvvələrini əzdi və oktyabrın 21-də Təbrizi geri aldı. 1603-cü ildə bütün Cənubi Azərbaycanı osmanlılardan azad etdi. Həmin ildə Ordubadı, Culfanı və Naxçıvanı; 1604-cü ildə İrəvanı azad etdi. Osmanlılar böyük qüvvə ilə gələndə bu yerlərin əhalisini İsfahana və Mazandarana köçürdü. 1605-ci ildə gürcülərin qüvvələri ilə birləşərək Şirvanın çox hissəsini osmanlılardan təmizlədi, sonra Allahverdi xanın başçılığı ilə Van şəhərinə gözlənilməz hücuma keçdi. Əks-hücumla gələn osmanlıların qarşısı Ərdəbillə Sərab arasında alındı. 1605-ci ilin noyabrında osmanlılar burada məğlub edildilər. Şah 1606-cı ildə Gəncəni, 1607-ci ildə Şamaxını tutdu. Bakı və Dərbənd əhalisi də belə şəraitdən istifadə edərək 1607-ci ilin yanvarında üsyan qaldırdılar. Beləliklə 1603-1607-ci illərdə istedadlı sərkərdə kimi müvəffəqiyyətli hərbi əməliyyatlar aparan Şah Abbas bütün Azərbaycan ərazilərini osmanlı işğalından azad edib milli dövlətçiliyi bərpa etdi.

Lakin hələ müharibə başa çatmamışdı. 1612-ci ilin 17 oktyabrında Sərab sülhü imzalandı, 1555-ci il Amasiya sülhü bərpa olundu. Osmanlılar Sərab sülhünü 1613-cü ildə pozdular. Buna cavab olaraq 1618-ci ilin yazında Sərabda Sınıq körpü deyilən yerdə Şah Abbas osmanlıları darmadağın etdi və onlar sentyabr ayında Mərənd sülhünü imzaladılar.

XVII əsrin 20-ci illərində Osmanlı imperiyasının daxilində baş verən çəkişmələrdən istifadə edən Şah Abbas 1622-1623-cü illərdə Bağdadı, Nəcəfi, Kərbəlanı, Kərkükü və başqa əhəmiyyətli şəhərləri Azərbaycana birləşdirdi.

1625-ci ildə Gürcüstanda Georgi Saakadzenin başçılığı ilə üsyan başladı. Həmin ildə də Şah Abbas Əlkitçay döyüşündə Gürcüstanda üsyançıların qüvvələrini darmadağın etdi.

Şah Abbasın ölümündən sonra şahlıq taxtına çıxmış nəvəsi I Şah Səfinin dövründə (1629-1642), 1638-ci ildə Bağdad itirildi. Şah Səfi 1639-cu ildə məcbur olub Qəsri-Şirin sülhünü imzaladı və bu müqavilə ilə 1555-ci il sülhünü təsdiqlədi. Bu sülh XVIII əsrin birinci rübünədək qüvvədə qaldı.

## SƏFƏVİ İMPERATORLUĞUNUN DAXİLİ HƏYATI

Dövlət idarəçiliyinin ən yüksək pilləsində qeyri-məhdud hakimiyyətə malik ŞAH dururdu. Onun yanında tərkibi ən nüfuzlu qızılbaş əmir və əyanlarından ibarət Ali Məclis fəaliyyət göstərirdi. Sonra, şahın dini və dünyəvi işlər üzrə (müavin sayılan) Vəkili var idi. O, dövlətdə ikinci şəxs idi. Qızılbaş türk tayfalarından toplanmış hərbi dəstələr, yəni qoşun, çərik adlanırdı. Bu qoşun Qorçubaşçıya tabe idi. Vəzir - mülki işlərə və mədaxil-məxaric işlərinə, Sədr - dini idarələrə, Qazi - şəriət məhkəməsi işlərinə rəhbərlik edirdilər.

İnzibati bölgü məsələsində Azərbaycan Səfəvi dövlətinin ərazisi bəylərbəyliklərə, bəylərbəyliklər isə öz daxilində mahallara bölünürdülər. Bəylərbəyi qızılbaş əyanlarının tərkibindən seçilib təyin olunurdu. Mahallara - Haiblər, şəhərlərə - Kələntərlər, kəndlərə - Kəndxudalar başçılıq edirdilər. Darğa şəhər polisinin başçısı idi və o, kələntərə tabe idi.

Bakı liman şəhəri olduğuna və neft istehsalına görə məşhur idi. 300 min nəfər əhaliyə malik Təbriz, ən iri şəhər idi. Gəncə isə əhalinin sayına görə ikinci yerdə dururdu. O zamanın tarixçilərindən olan Xandəmir Təbriz şəhərini "dünyanın dörddəbir hissəsinin ən abad şəhəri", Oruc bəy Bayat isə "Şərqin paytaxtı" adlandırmışlar. Təbrizdə yun, pambıq və ipək toxuculuğu, boyaqçılıq yüksək səviyyədə inkişaf etmişdi. Lakin Səfəvi-Osmanlı müharibələri və 1555-ci ildə paytaxtın Qəzvinə köçürülməsi Təbrizin sonrakı iqtisadi inkişafına mənfi təsir göstərdi.

Ərdəbil şəhərinə gəldikdə isə, ölkənin dini, ideoloji mərkəzi olduğuna və beynəlxalq ticarət yollarının üstündə yerləşdiyi üçün inkişafına böyük zəmin yaranmışdı. Qeyd edək ki, XVI yüzillikdə Cənubi Qafqazda ipək istehsalının və ticarətinin, demək olar, hamısı Şamaxı və Ərəşdə cəmləşmişdi. Təsadüfi

deyil ki, 1562-ci ildə İngiltərənin "Moskva" şirkəti ilə Şirvan arasında ipək ticarətinə dair bəylərbəyi Abdulla xanla A.Cenkinson arasında müqavilə imzalanmışdı [4, s.197].

Mədəniyyət məsələləri barədə. Azərbaycan Səfəvilər imperatorluğunda XVI-XVII yüzilliklərdə çoxsaylı məktəb və mədrəsə şəbəkəsi yaradılmışdı. Bu zamanlarda tarix, fəlsəfə, coğrafiya, riyaziyyat, məntiq, qrammatika, dil, nücum (astronomiya) və başqa fənlərə aid bir sıra elmi əsərlər yazıldı. O, dövrün görkəmli mütəfəkkirlərindən dahi Məhəmməd Füzulini, filosof Həqiqini, şah I Təhmasibin salnaməçisi olmuş Həsən bəy Rumlunu, Oruc bəy Bayatı, şah I Abbasın salnaməçisi İskəndər bəy Münşini göstərmək olar. Şah İsmayıl Səfəvi öz dövründə Marağa rəsədxanasını bərpa etdirmişdir.

## Nəticə

Səfəvi-Osmanlı arasında müharibələr göstərdi ki, artıq müasir odlu silah olmadan Osmanlı və ya hər hansı bir dövlətlə müharibədə qələbə qazanmaq mümkün deyil. I Şah İsmayılın Portuqaliyadan odlu silah almaq ümidi özünü doğrultmadı. Portuqaliya İran körfəzində daha da möhkəmlənməyə başladı. Portuqaliyalılar l515-ci ildə Hörmüz limanını ələ keçirərək Səfəvilərin Hind okeanına çıxışını tamamilə bağladılar.

Azərbaycan Səfəvi dövlətinin hərbi-siyasi tarixində Çaldıran döyüşü mühüm hadisə olmuşdur. Çaldıran məğlubiyyəti I Şah İsmayılın yenilməzliyi haqqındakı inancı məhv etdisə, Sultan Səlim də öz məqsədinə nail ola bilmədi. Onun məqsədi bu dövləti tamamilə aradan qaldırmaq idi. Ancaq, o, dövlət adamları və bilavasitə yeniçəri ocağının gözlənilməyən müqaviməti ilə qarşılaşdı. Lakin Osmanlı Sultan nəinki məqsədinə nail olmadı, hətta Azərbaycan ərazisini tərk etməklə qələbəsinin əhəmiyyətini xeyli azaltdı.

Beləliklə, nəticə etibarilə uzun müddət davam edən Səfəvi-Osmanlı müharibələri Səfəvi dövlətini zəiflətmiş, Rusiya isə Cənubi Qafqazı işğal etmək və Xəzər dənizini özünün daxili gölünə çevirmək planını həyata keçirməyə başlamasına imkan yaratmışdı. Habelə, 1722-ci ildə Rusiya, 1723-cü ildə Osmanlı Səfəvilərə qarşı mühüribəyə başladı. Rusiya 1722-1723-cü iilərdə apardığı hərbi əməliyyatlar nəticəsində Dərbənd, Bakı, Lənkəran, Rəşti – Xəzər dənizinin Səfəvilərin nəzarətində olan sahillərini ələ keçirdi. 1723-1726-cı illərdə Osmanlıların apardığı hərbi əməliyyatlar nəticəsində Çuxursəəd, Qarabağ, Təbriz, Həmədan bəylərbəylikləri ələ keçirildi. Artıq Səfəvilərin zəiflədiyini zənn edən həmin dövlətlər Səfəvilər dövlətinin ərazisini özü aralarında bölüşdürdülər. ❖

**Ədəbiyyat:**

1. Süleymanov N. Azərbaycan Səfəvilər dövləti (1501-1736-cı illər). Dərs vəsaiti. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı. – 2018. - 214 səh.
2. Nəcəfli T. "Azərbaycan səfəvi dövlətinin Venesiya və Papalıqla münasibətləri. Türkiyə tarixşünaslığında". // "GEO Strategiya". 2015, № 1 (25), s.7-12.
3. Azərbaycan tarixi. Bakı, AAHM mətbəəsi, 2002.
4. Tarix. Azərbaycan Respublikası Təhsil Nazirliyi və TQDK tərəfindən təsdiq edilib. Bakı, 2006.
5. Musalı N. I Şah İsmayılın hakimiyyəti (Tarix-i-aləmarayi Şah İsmayıl" əsəri əsasında). Bakı: "Elm və təhsil", 2011, 482 s.
6. Əfəndiyev O.A. Azərbaycan Səfəvilər dövləti. Bakı: "Şərq-Qərb" nəşriyyatı, 2007, 342 s.
7. Fərzəliyev Ş.F. Azərbaycan və Osmanlı imperiyası (XV-XVI əsrlər). Bakı: "Kür" Nəşriyyatı, 1999, 241 s.
8. Savory R. "The Consolidation of Ṣafawid Power in Persia," Der Islam 41, 1965, pp. 87-88; repr. in Studies in the History of Ṣafawid Iran, London, 1987, III, pp. 87-88
9. Гордлевский В.А. Избранные сочинения. Исторические работы. М.: Изд-во вост. лит., 1960. Т. I. 552 с
10. İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi (Tarixe-aləmaraye-Abbasi). Bakı: "Şərq-Qərb Nəşriyyat evi", 2010, 1144 səh.
11. Фарзалиев Ш.Ф. Относительно Томов "Ахсан ат-Таваррих" Хасан бека Румлу. Ученые записки АГУ им. С.М.Кирова, серия "Востоковед", №1, 1972.

**Резюме**

Низами Магеррамов
Закир Гасаналиев

СЕФЕВИДСКО-ОСМАНСКИЕ ВОЙНЫ

Автор статьи переносит читателей в эпоху Сефевидской и Османской Империй. Рассмотрение проблемы в этой плоскости и актуализирует тему "Османо-Сефевидские войны", выбранную авторами.

**Ключевые слова:** сефевиды, османы, кызылбаши, государственность, посланник, папство

**Summary**

Nizami Maharramov
Zakir Hasanaliyev

SAFAVİD–OTTOMAN WARS

The period of the rise of the two Turkish Empires – Azerbaijani Safavid and Ottoman - almost coincides in time. This was the main reason for their rivalry of the Ottoman-Safavid wars, which lasted intermittently for more than a hundred years, as well as the reason for the interest of the papacy and European countries in their weakening and deposition in order to prevent their conquest of European and other countries.
To consider the problem in this plane and actualizes the theme of "Ottoman-Safavid wars", selected by the authors.

**Key words:** Safavids, Ottoman, kizilbashi, statehood, embassy, the Popes